**2 və 3 iyul 2020-ci il tarixlərində imtahan keçiriləcək rayon və şəhərlər, imtahanda iştirak etməli olan şəxslər və imtahanların növləri ilə qrafikdə tanış ola bilərsiniz**

Digər şəhər və rayonlar üzrə imtahanların (o cümlədən əvvəlki illərin məzunları üçün qəbul imtahanlarının (Naxçıvan istisna olmaqla)) ictimaiyyətə əvvəlcədən məlumat verilməklə növbəti həftə içi günlərində keçirilməsi planlaşdırılır.

Xatırladaq ki, 3 iyul tarixində Naxçıvanda əvvəlki illərin məzunları üçün qəbul imtahanının birinci mərhələsi və kolleclərə qəbul imtahanı, həmçinin Heydər Əliyev adına Hərbi Liseyə qəbul imtahanı keçiriləcəkdir. Bundan əlavə, xüsusi karantin rejimindən əvvəl Naxçıvana gedərək orada qalan və yaranmış vəziyyətlə əlaqədar DİM-ə müraciət edən şəxslərin nəzərinə çatdırırıq ki, onlar üçün də imtahan 3 iyul tarixində Naxçıvanda təşkil olunacaqdır. Həmin şəxslər Bakıya dönməməli və Naxçıvanda qalmalıdırlar.

İmtahana buraxılış vərəqəsi hər imtahan gününə 5 gün qalmış Mərkəzin saytında yerləşdiriləcək.

| **Tarix/İmtahan** | **02.07.2020** | **03.07.2020** |
|---|---|---|
| – Əvvəlki illərin məzunları üçün ali təhsil müəssisələrinə qəbul imtahanının 1-ci mərhələsi və kolleclərə qəbul imtahanı<br>– H.Əliyev adına Hərbi Liseyə qəbul imtahanı | — | Naxçıvan MR |
| 11-ci sinif cari ilin məzunları üçün buraxılış imtahanı | Daşkəsən<br>Şirvan<br>Ağcabədi<br>Bərdə | Naxçıvan MR<br>Naftalan<br>Saatlı |
| Azərbaycan dili (dövlət dili) imtahanı<br>-Azərbaycan dilindən fərqli dildə təhsil alan 11-ci sinif cari ilin məzunları üçün | Tovuz<br>Gədəbəy<br>Şəki<br>Şamaxı<br>Ucar<br>Qusar | Naxçıvan MR<br>Şəmkir<br>Qəbələ<br>İsmayıllı<br>Zərdab<br>Şabran |
| 9-cu sinif cari ilin məzunları üçün buraxılış imtahanı | Tovuz<br>Gədəbəy<br>Şəki<br>Lerik<br>Şamaxı<br>Ucar<br>Qusar | Naxçıvan MR<br>Şəmkir<br>Qəbələ<br>Yardımlı<br>İsmayıllı<br>Zərdab<br>Şabran |

| | | |
|---|---|---|
| 9 illik təhsil bazasında kolleclərə sənəd vermiş əvvəlki illərin məzunları üçün qəbul imtahanı | Tovuz<br>Gədəbəy<br>Şəki<br>Lerik<br>Şamaxı<br>Ucar<br>Qusar | Naxçıvan MR<br>Şəmkir<br>Qəbələ<br>Yardımlı<br>İsmayıllı<br>Zərdab<br>Şabran |
| Azərbaycan dili (dövlət dili) imtahanı:<br>– Azərbaycan dilindən fərqli dildə təhsil alan 9-cu sinif cari ilin məzunları üçün<br>– 9 illik təhsil bazasında kolleclərə ərizəsini rus bölməsi üzrə təsdiq etmiş əvvəlki illərin məzunları üçün | Daşkəsən<br>Şirvan<br>Ağcabədi<br>Bərdə | Naxçıvan MR<br>Naftalan<br>Saatlı |

Qeydlər:

- Həmişə olduğu kimi cari ilin məzunları bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər. Əvvəlki illərin məzunları isə şəxsi kabinetlərində faktiki yaşadıqları ünvanı qeyd etdikləri halda, yaşadıqları ünvanın aid olduğu yerə uyğun, əks halda, şəxsiyyət vəsiqəsində qeyd olunmuş ünvanın aid olduğu yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər.

- Məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixlərdə imtahan verirlər.